# Tariximizin daş yaddaşı - Qobustan

**Hər bir xalqın dövlətçilik tarixi onun uzaq keçmişindən xəbər verir. Dünyanın ən qədim insan məskənlərindən və sivilizasiyaların ilk mərkəzlərindən hesab edilən Azərbaycan dünyada ən inkişaf etmiş və müxtəlif sahələri əhatə edən sənətkarlıq diyarlarından biridir. Çoxəsrlik inkişaf yolu keçmiş xalqımızın tarixi onun maddi və mənəvi abidələrində, arxeoloji və yazılı mənbələrində öz əksini tapmışdır. İstər arxeoloji abidələr, istərsə də yazılı mənbələr xalqımızın siyasi və iqtisadi, hərbi və mədəni, etnik və dini tarixinin aynasıdır.**

**Bu aynadan xalqımızın yaşayış tərzini, mədəniyyətini, incəsənətini, musiqisini özündə əks etdirən daş kitabəmiz, tariximizin daş yaddaşı - Qobustan abidələrinə boylandıq. Bu nəhəng qayaların yaddaşında canlı tariximizi yaşadan Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Rüfət NURİYEVİN fikirlərini öyrəndik:**



—Azərbaycanın qədim tarixini özündə yaşadan, xalqımızın daş yaddaşı olan Qobustan abidələri paytaxtdan 65 kilometr aralıda yerləşir. Üst paleolit və mezolit dövrünün ilk ovçu qəbilələrinin, neolit dövrünün ilk maldarlarının məskənlərini özündə əks etdirən Qobustan eyni zamanda dünya əhəmiyyətli tarixi abidədir. Əcdadlarımızın həyat tərzini, məişətini, məşğuliyyətini, mədəniyyətini, incəsənətini köksündə yaşadan Qobustan Milli Tarix-Bədii Qoruğu Azərbaycan SSR Nazirlər Sovetinin 09 sentyabr 1966-cı il tarixli, 503 nömrəli qərarı ilə yaradılmış elmi-tədqiqat idarəsi statusuna malik ərazidir. Qoruğun ərazisinə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş xəritə-sxemə əsasən Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları və onları əhatə edən sahələr (ümumi sahəsi 4400+135 hektardır) və Şonqardağ, Şıxqaya qayaüstü kolleksiyaları daxildir. Ölkə başçısı cənab İlham Əliyevin 11 iyun 2007-ci ildə imzaladığı “Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorunması haqqında” Sərəncama əsasən qoruq ərazisində bir çox abadlıq işləri görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə 29 iyun 2007-ci il tarixində Yeni Zelandiyanın Kristcorc şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin XXXI Sessiyasında Qobustanın qayaüstü rəsmləri, mədəni landşaftı ilə birlikdə YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilmişdir. Nazirlər Kabinetinin 6 noyabr 2007-ci il tarixli, 172 nömrəli “Qobustan Dövlət tarixi-bədii qoruğuna milli qoruq statusunun verilməsi haqqında” qərarına əsasən qoruğa Milli Qoruq statusu verilmişdir. Ölkə başçısının 2011-ci ildə imzaladığı digər sərəncamla qoruq ərazisində yeni inzibati və muzey binası tikilib istifadəyə verilmişdir. Muzeyin ekspozisiyası Latviyanın məhşur “DD Studio” dizayn şirkəti tərəfindən ən müasir texnologiyalardan istifadə olunmaqla hazırlanmışdır.

Görülən işlərin nəticəsində Qobustan qoruğunun muzeyi Avropa Şurasının himayəsi ilə yaradılmış Avropa Muzeylər Forumunun təsis etdiyi və Avropanın ən prestijli muzey mükafatı olan “Avromuzey 2013” mükafatına layiq görülmüşdür.



Muzeydə dünya qayaüstü incəsənəti və Qobustan abidələri haqqında geniş məlumat əldə etmək olar. Muzey 12 ekspozisiya zalından ibarətdir. Sensor ekranlı monitorlar və 3D elementlərlə zəngin muzeydə dünyanın müxtəlif guşələrində olan qayaüstü incəsənət nümunələri, Qobustanın minilliklər ərzində dəyişən təbii mühiti, burada aparılmış arxeoloji qazıntılar, daş dövrü insanlarının həyat tərzi və incəsənəti, Qobustan petroqliflərinin xronologiyası, mənası və s. haqqında məlumat almaq olar.

Qoruğun ərazisi dünya əhəmiyyətli xüsusi mühafizə olunan tarix-mədəniyyət ərazilərinə aiddir. 2013-cü ildə Qobustan qoruğuna YUNESKO tərəfindən Dünya İrs Siyahısında olan çox az sayda tarixi ərazilərə şamil edilmiş “gücləndirilmiş mühafizə” statusu verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Qoruğun unikallığını və ümumdünya əhəmiyyətini nəzərə alaraq sərəncamla Qoruğun ərazisinə daha 135 ha əlavə edərək onu 4535 hektara çatdırmışdır.

Bütün bunlarla yanaşı, açıq səma altında olan muzeydə müxtəlif dövrlərə aid qayaüstü rəsmlər, təsvirlər, “Qavaldaş” kimi tarixi abidələrimiz qorunur. Ümumiyyətlə, Qobustan Milli Tarix-Bədii Qoruğunun Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şonqar və Şıxqaya dağları ərazilərində 1031 qaya üzərində çəkilmiş 6300-dən çox təsvir dünya əhəmiyyətli abidə kimi dövlət qeydiyyatındadır. Arxeoloji materialların ümumi sayı 105 000 ədəd təşkil edir. 2016-cı ildə aparılan elmi tədqiqat işləri nəticəsində Cingirdağ-Yazılıtəpə sahəsindəki bütün təsvirli daşlar, o cümlədən tədqiqat zamanı aşkar edilmiş 4 yeni təsvirli daş da daxil olmaqla ümumilikdə 171 daş sənədləşdirilmiş, fotoları çəkilmiş, GPS koordinatları müəyyənləşdirilmiş, üzərində təsvir olan 109 daşdan 35-nin asetat örtük vasitəsilə, 18-nin 3D model vasitəsilə eskizi çıxarılmış, digər təsvirli daşların laboratoriya şəraitində 3D modellərini düzəltmək üçün foto arxivləri yaradılmış, 14 daşın eskizləri dəqiqləşdirilmiş və qeydiyyat vərəqələri doldurulmuşdur. Onlardan 11 daşda əvvəllər qeydiyyatda olmayan 94 təsvir qeydə alınmış, ümumilikdə üzərində 44 təsvir olan 3 daş (168, 169, 170 nömrəli) isə tədqiqat zamanı aşkar olunmuşdur. Nəticədə 2016-cı il çöl tədqiqatı zamanı Cingirdağ-Yazılıtəpə qayaüstü təsvirlər kolleksiyasına 138 ədəd əvvəllər qeydiyyatda olmayan yeni təsvir və 4 daş əlavə olunmuşdur. Yeni təsvirlər əsasən Yazılıtəpə üçün xarakterik olan keçi təsvirləri, işarə-damğalar, antropomorflar, geometrik işarələr və 48 nömrəli daşdakı araba təsvirindən ibarətdir.

Eyni zamanda aparılan tədqiqatlar nəticəsində Qoruqda 1000-dən çox qayanın üzərində 6000-dən çox qayaüstü təsvir qeydə alınmış, 40-dan artıq kurqan aşkar olunmuş və 105 000-dən çox maddi-mədəniyyət nümunələri kəşf edilmişdir. Qayalardakı insan, heyvan, kollektiv əmək, qayıq təsvirləri, oyma, sürtmə, çapma və cızma üsulları ilə çəkilmiş təsvirlərin əksəriyyəti eramızdan əvvəl VIII minilliyə aiddir. Hələ daş dövründə yaşayan əcdadlarımızın musiqi aləti hesab olunan “Qavaldaş”, qayalarda təsvir olunan “Yallı” rəqsini xatırladan səhnələr xalqımızın min illər əvvəl musiqiyə, incəsənətə sahib olmasının bariz ifadəsidir.

Eramızın 81-96-cı illərinə aid 6 sətirdən ibarət Roma yazısı Roma imperatoru Domitsianın dövründə 12-ci Roma legionunun burada olduğunu göstərən fakt Qoruğumuzun dəyərli nümunələrindən biri kimi qorunmaqdadır.

Ümumi sahəsi 2460 kvadratmetr olan muzeyimizin ərazisində ötən il geniş abadlıq işləri aparılmış, 1000-ə yaxın yeni ağaclar əkilmiş, o cümlədən su və kommunikasiya təchizat xətləri təmir edilmişdir. Qobustan abidələr kompleksinin mühafizəsi təkmilləşdirilmiş, Cingirdağ dağı ərazisində mühafizə postu təşkil olunmuş, Qoruğun landşaftı və təbiətinə zərər vurulmasının qarşısı alınmışdır.

Bundan başqa qeyd etmək lazımdır ki, Qoruğun fond materiallarının əsasını təşkil edən qayaüstü rəsmlər və digər tarixi əhəmiyyətli abidələr 4535 ha ərazidə yerləşdiyi üçün onların mühafizəsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə Fond şöbəsi tərəfindən mütəmadi olaraq monitorinqlər keçirilmiş, qayaüstü təsvirlərin rəqəmsal məlumat bazasının yaradılması layihəsi çərçivəsində qayaüstü təsvirlərin vahid qeydiyyat vərəqələri yaradılmış, qeydiyyat vərəqələrində hər bir daşın ölçüləri, yerləşməsi, GPS koordinatları hər bir təsvirin ölçüsü, saxlanma vəziyyəti, aşınmaya məruz qalması, aşınmanın növü və dərəcəsi qeyd edilmişdir.

Elmi tədqiqatın bir hissəsi olaraq AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Elmi arxivinin müdiri, aparıcı elmi işçi, tarix üzrə fəlsəfə doktoru İdris Əliyevin rəhbərliyi və dəstəyi ilə aparılan araşdırma və tədqiqat nəticəsində Qobustan qoruğunda aparılmış ilk elmi-arxeoloji ekspedisiyaya aid arxiv sənədləri tapılmışdır.

Bu sənədlər içərisində: 1939-1941-ci illərə aid 58 fotoşəkil, 4 ədəd İshaq Cəfərzadəyə məxsus əlyazma, 1939-cu ilin mayında SSRİ EA Azərbaycan Filialının Memarlıq və incəsənət sektorunun əməkdaşlarının N.K.Melin rəhbərliyi ilə Şıx, Səngəçal və Qobustan ərazisinə təşkil edilmiş ekspedisiyanın hesabatı və 16 fotoşəkil, İ.Cəfərzadənin 1973-cü ildə nəşr olunmuş “Qobustan - Qayaüstü təsvirlər” kitabının ilkin əlyazma nümunələri əldə olunmuş və Qoruğun elmi köməkçi fonduna daxil edilmişdir.

Qobustan qoruğunun ilk tədqiqatçısı görkəmli arxeoloq İ.Cəfərzadənin əsasən 1939-1941-ci illər dönəmində apardığı tədqiqatlara aid arxiv materialları da Qobustan qoruğunun fonduna daxil edilmişdir. Materiallar əsasən 1939-1941-ci illərdə İ.Cəfərzadənin şəxsən özü və həmçinin digər tədqiqatçılar (Paxomov, İsmayılova, Şeblikin, İ.Şerbanova, Kasiyeva, Ç.Ə.Xəlilov və b.) tərəfindən lentə alınmış fotoşəkillərdir. Foto materiallar özündə Cingirdağ ərazisində qeydə alınan qayaüstü təsvirləri, yaxınlıqdakı karvansaraları, yataq və qışlaqları, köç adətlərini, milli geyimləri, bu ərazidə yaşayan insanların həyat şəraitini və Cingirdağın ümumi landşaft görüntülərini əks etdirir.

Arxiv sənədləri arasında 1964-cü ilə aid 2 ədəd kinolent də aşkar olunmuşdur. Kinolentlər Mədəniyyət və Turizm Nazirliyinin “Dövlət Film Fondu”nun dəstəyi ilə bərpa olunmuş və rəqəmsal formata çevrilmişdir.

Abidələrin öyrənilməsi, elmi-ekspozisiya işinin təkmilləşdirilməsi, ərazidə elmi-tədqiqat işlərinin davam etdirilməsi məqsədilə Qoruqda çalışan elmi işçilərin və bələdçilərin peşəkarlıq səviyyəsinin yoxlanılması, onların bilik səviyyəsinin artırılması üçün il ərzində iki dəfə master-klasslar təşkil olunmuş, bundan əlavə təsdiq olunmuş Plana əsasən Qoruğun elmi işçiləri arxeologiya və qayaüstü incəsənət mövzusunda təqdimatlarla Qoruq əməkdaşları və muzeyə gələn ziyarətçilər qarşısında çıxış etmişlər.



Bundan başqa ölkə başçısı tərəfindən təsdiqlənən “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasının 10-cu bəndində, “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın 1.2. bəndində, “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası”nın 3.2. bəndində nəzərdə tutulmuş muzey fondlarının və arxeoloji abidələrin elektron məlumat bazasının yaradılması müddəasını nəzərə alaraq Qobustan Milli Tarix-Bədii Qoruğunun fondlarında saxlanılan maddi mədəniyyət abidələrinin (qayaüstü təsvirlər, arxeoloji materiallar, qədim yaşayış və dəfn abidələri və s.) müasir tələblərə cavab verən rəqəmsal məlumat bazasının yaradılması layihəsinə başlanılmışdır. 3 istiqamətdə həyata keçiriləcək layihədə qayaüstü təsvirlərin sənədləşdirilməsi, fond materiallarının sistemləşdirilməsi və bütün bunların eyni zamanda yazılı məlumatların (çöl kitabları, arxeoloji hesabatlar və s.) rəqəmsallaşdırılması nəzərdə tutulur.

Onu da qeyd etmək istərdim ki, 2016-cı ildə Cingirdağ-Yazılıtəpə qayaüstü təsvirlər kolleksiyasının rəqəmsal qeydiyyatına başlanılmışdır. Layihə zamanı Azərbaycan arxeologiyasında ilk dəfə olaraq abidələrin öyrənilməsində 3D modelləşdirmə metodundan istifadə olunmuş, 3D metodunun tətbiqi nəticəsində əvvəllər qeydiyyatda olan 10 daşın üzərində 94 yeni təsvir aşkar edilmişdir. Daha sonra qeyd olunan çöl tədqiqatları mövsümü ərzində Qoruq əməkdaşlarının Cingirdağ-Yazılıtəpə ərazisində apardığı sənədləşdirmə işləri yekunlaşdırılmışdır.

Qoruq ərazisində yerləşən abidələrin uzaq perspektivdə təbii qüvvələrin dağıdıcı təsirinə məruz qalma riskini müəyyənləşdirmək üçün də müəyyən işlər görülmüşdür. Belə ki, Kiçikdaş dağının zirvəsinin şərq ətəyində təxminən 2 ha ərazidə yağış sularının torpağı yuması nəticəsində əmələ gəlmiş çatların buradakı abidələrə mümkün təhlükəsini araşdırmaq məqsədilə “Varis” MMC tərəfindən ərazinin rəqəmsal topoqrafik xəritəsi hazırlanmışdır. Gələcəkdə torpaq aşınmasının monitorinqinin aparılması üçün lazımi yerlərdə reperlər (ankerlər) vurulmuş, qrunt nümunələri götürülərək laborotoriya şəraitində yoxlanılmış və hesabatı hazırlanmışdır.

Ekskursiya-kütləvi işin canlandırılması, turizmin inkişafı məqsədilə 2016-cı ilin əvvəlindən başlayaraq Azərbaycan Turizm Assosiasiyası ilə əlaqələr qurulmuş, Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Turizm Assosiasiyasının (AZTA) təşkilatçılığı ilə Qobustan Milli Tarix-Bədii Qoruğuna infotur təşkil olunmuşdur. İnfoturda ölkəmizdə fəaliyyət göstərən bir sıra turizm şirkətləri və media nümayəndələri iştirak etmiş, Qobustan qəsəbəsində yerləşən məktəblərdə mühazirələr oxunmuşdur.

Böyükdaş dağının yuxarı səki marşrutu ilə yanaşı yeni Kiçikdaş dağı marşrutu, Böyükdaş dağının aşağı səki marşrutu, Cingirdağ-Yazılıtəpə marşrutu üzrə yeni ekskursiya marşrutları yaradılmış, Kiçikdaş dağı marşrutu üzrə ekskursiya mətni işlənib hazırlanmışdır.

Digər marşrutların ekskursiya mətnləri hazırlanmaqdadır.

Böyükdaş dağının yuxarı səki sahəsində yeni “İbtidai insanın bir günü” adlı interaktiv tur istifadəyə verilmişdir. İnteraktiv tur xronoloji ardıcıllığa uyğun olaraq “Paleolit incəsənəti”, “Mezolit ovçuları”, “Neolit kəndi”, “Tunc dövrü sənətkarlığı”, “Orta əsr zərbxanası” bölmələrindən ibarətdir. Bu bölmələrdə ziyarətçilər bələdçinin nəzarəti altında Qobustanda aşkar olunmuş alətlər əsasında hazırlanmış avadanlıqların köməyi ilə xüsusi ayrılmış daşlar üzərində petroqlif çəkə və digər incəsənət nümunələri yarada, Neolit dövrü evi və məişəti ilə tanış ola, qida məhsullarının hazırlanmasında iştirak edə, təndir çörəyi və süd məhsullarının dadına baxa, dulus çarxında Qobustan gilindən istifadə etməklə saxsı qablar düzəldə və hazır klişelərdən istifadə etməklə üzərində Qobustan simvolları əks olunmuş xatirə sikkələri zərb edə bilərlər.

Böyükdaş dağının yuxarı səki sahəsində yerləşən, e.ə III minilliyin sonlarına aid edilən 17 nömrəli kurqan ətrafı abadlaşdırılaraq yeni yaradılmış interaktiv turizm marşrutuna daxil edilmişdir.

Bildirmək istərdik ki, 2016-cı il ərzində 2626 sayda ekskursiya aparılmış və Qoruğa gələn ziyarətçilərin sayı 69000 nəfər təşkil etmişdir ki, bu da ötən illə müqayisədə 22673 nəfər çox turist deməkdir.

Ziyarətçilər üçün Qoruğun bələdçi xəritəsi, yeni buklet və flayerlər çap olunmuşdur.

Bundan başqa 2016-cı ildə Qoruğun əməkdaşları müxtəlif elmi konfranslarda iştirak etmiş, o cümlədən Yaponiya, Qırğızıstan, Sinqapur və Monqolustanda Qoruq, onun geniş elmi fəaliyyəti və dünya əhəmiyyəti təbliğ olunmuşdur.

Bütün bunlarla yanaşı Qobustan abidələrinin dünya miqyasında təbliği və təşviqi məqsədilə Qoruğun 50 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi üçün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkilati işlərə start verilmişdir.

**Mehparə ƏLİYEVA,**
**“Respublika”.**



